AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ
**SUMQAYIT BAŞ GÖMRÜK İDARƏSİ**

# SƏRƏNCAM

№ 143/ 014

Sumqayıt şəhəri «01» Mart 2018 il

**Dövlət Gömrük Komitəsinin 21 noyabr 2016-cı il tarixli, 100/197 saylı Sərəncamının icrası barədə**

Dövlət Gömrük Komitəsinin 21 noyabr 2016-cı il tarixli 100/197 saylı Sərəncamı ilə təsdiq edilmiş "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamənin 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə:

1. Sumqayıt BGİ-nin əməkdaşları və biznes subyektlərinin nümayəndələrindən ibarət aşağıdakı yeni tərkibdə İctimai Şura yaradılsın.

**İctimai Şuranın sədri:**

| | |
|---|---|
| Paşayev Aslan Ənvər oğlu | Baş İdarə rəisinin I müavini |

**İctimai Şuranın üzvləri:**

| | |
|---|---|
| Hüseynov Əhməd Mais oğlu | Maliyyə-Tarif şöbəsinin rəisi |
| Sərxanov Aslan Fəyaz oğlu | Gömrük rəsmiləşdirilməsi şöbəsinin rəisi |
| Ağayev Elbrus Nadirulla oğlu | Fəaliyyətin qiymətləndirilməsi şöbəsinin rəisi |
| Niyazova İradə Səməd qızı | Ümumi şöbənin rəisi |
| Tağıyev Musa Razi oğlu | Maliyyə-tarif şöbəsinin baş inspektoru |
| Həsənov Rəşad Məhərrəm oğlu | Gömrük rəsmiləşdirilməsi şöbəsinin inspektoru |
| Nəcəfov Şahin İsa oğlu | "Azərkimya" İB direktoru |
| Mirzəyev Mahir Hökmalı oğlu | "Giləzi-Quşçuluq" MMC-nin direktoru |
| Ağakişiyev İntiqam Əjdər oğlu | "Planet-B" MMC-nin direktoru |
| Ağalarov Natiq Kamil oğlu | "Lokal Market" MMC-nin direktoru və digər biznes subyektlərinin nümayəndələri |

2. İdarə üzrə verilmiş 30 dekabr 2016-cı il tarixli, 143/005 nömrəli sərəncam qüvvədən düşmüş hesab edilsin.

3. İctimai Şuranın sədri (A.Paşayev) Əsasnamədə göstərilən məsələlərin yerinə yetirilməsini təmin etsin.

4. Ümumi şöbə (İ.Niyazova) sərəncamın surətinin aidiyyatı üzrə göndərilməsini təmin etsin.

5. Sərəncamın icrasına nəzarəti özümdə saxlayıram.

**Baş İdarənin rəisi** **Vəzir Həsənov**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi
Sumqayıt Baş Gömrük İdarəsinin və biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuranın iclasının

# P R O T O K O L U

**№ 9**

Sumqayıt şəhəri "30" noyabr 2018-ci il

**Sədrlik etdi:** SBGİ rəisinin birinci müavini Aslan Paşayev

**İştirak etdi:** İctimai Şuranın üzvləri və əməkdaşlar

## GÜNDƏLİK:

1. Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi qaydalarının izah edilməsi

2. Gömrük ekspertizasının aparılmasının təşkili, mallardan prob və nümunələrin götürülməsi, onlar barəsində sərəncam verilməsi qaydaları və gömrük ekspertizasının növləri haqqında məlumat verilməsi

**EŞİDİLDİ:**

1. Aslan Paşayev
2. Elbrus Ağayev
3. Əhməd Hüseynov

**ÇIXIŞ ETDİLƏR:**

**Aslan Paşayev - Baş İdarə rəisinin birinci müavini,**
**İctimai Şuranın sədri**

"Açıq Hökümətin təşviqinə dair 2016-2018 illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27.04.2016-cı il tarixli, 1993 nömrəli Sərəncamına əsasən Dövlət Gömrük Komitəsinin müvafiq sərəncamının icrası ilə əlaqədar olaraq Sumqayıt Baş Gömrük İdarəsinin və biznes subyektlərinin nümayəndələrindən ibarət yaradılmış İctimai Şuranın iclaslarında gömrük işi ilə bağlı yeni və ləğv edilmiş qanunvericilik aktları və qanunvericiliyə edilmiş dəyişikliklər haqqında ətraflı məlumatlar verildiyini, biznes subyektlərinin nümayəndələri tərəfindən qaldırılan məsələlər ilə bağlı müzakirələrin aparıldığını və gömrük işi ilə əlaqədar yaranan bütün sualların ətraflı cavablandırıldığını bildirdi.

**Elbrus Ağayev – Gömrük Əməliyyatları İdarəsinin rəisi,**
**İctimai Şuranın üzvü**

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi şərtləri və bu prosedur altında yerləşdirilmiş malların gömrük rəsmiləşdirilməsi qaydaları haqqında ətraflı məlumat verdi.

**Əhməd Hüseynov – Gömrük Prosedurları və Ödənişləri şöbəsinin rəisi,**
**İctimai Şuranın üzvü**

Malların gömrük ekspertizasına göndərilməsi, gömrük ekspertizasının aparılmasının təşkili, mallardan prob və nümunələrin götürülməsi, onların barəsində sərəncam verilməsi, gömrük ekspertizasının aparılması müddətləri və gömrük ekspertizasına dair rəy haqqında ətraflı məlumat verdi.

**QƏRARA ALINDI:**

1.Müzakirə olunmuş mövzularla əlaqədar çıxışlar nəzərə alınsın.

**Sədr:** Aslan Paşayev

**Katib:** İradə Niyazova